Arşın Mal Alan

*Mənbə: Üzeyir Hacıbəyovun Ev Muzeyi, Bakı. Direktor Səadət Qarabağli.*
*Üzeyir Hacıbəyovun irsinə həsr olunmuş HAJİBEYOV.com saytı*
*© 2001 Azerbaijan İnternational*
*Tərcümə və mətnin yığılması: Fəridə Sadıxova*
*Vebmaster: Arzu Ağayeva*

Arşın Mal Alan bu günlər Azərbaycanlılar arasında ən çox tanınan və sevilən hekayələrdəndir. O, Üzeyir Hacıbəyovun 1913-ci ildə yazdığı və indiyə qədər səhnələşdirilən operettasına əsaslanır. Bu operetta esasında bir neçə film də çəkilmişdir. Bu yaxınlarda, rəssam Tərlan Qorçu Uşaq Marionet Teatrı yaratmış və ilk musiqili komediyası üçün bu hekayəni seçmişdir. Hekayə aşağıdakı kimi səslənir.

Biri var idi, biri yox idi, Əsgər adında bir dövlətli tacir özünə gəlin axtarırdı. O vaxtlar isə elə bir adət var idi ki, valideynlər öz oğul və qızları üçün həyat yoldaşını özləri seçirdilər. Valideynlərin çoxu öz qızlarını o qədər qoruyurdular ki, gənc oğlanlar onları nəinki tanıya, hətta bir dəfə olsun belə görə bilməzdilər.

Buna baxmayaraq, Əsgər qərara gəlmişdi ki, öz gələcək həyat yoldaşını özü seçəcək. O deyirdi: “Axı mən tacirəm və mən bir şey almaqdan qabaq onu yaxşıca nəzərdən keçirirəm. Bəs onda bundan sonra həyatımı birgə keçirəcəyim qadını seçməyə gəldikdə niyə bunu etməyim?” Bütün bunlara baxmayaraq, o, cəmiyyətdə bərqərar olan güclü adət ənənələrə qarşı çıxa bilmirdi.

Bir gün Əsgərin yaxın dostu Suleyman bir çıxış yolu təklif etdi. “Qadınları görə bilən yeganə kişi arşın malçıdır. Elə isə niyə sən əlinə arşın və bir qədər mal götürüb küçə-küçə gəzib mal satmayasan? Beləcə səni evlərə və həyətlərə dəvət edəcəklər, və orada sən arzuladığın qızı tapa biləcəksən.

Beləliklə dövlətli cavan tacir kasıb xırdavatçı kimi geyinib parça sataraq küçə və döngələri dolanmağa başladı. Bütün günü o: “Arşın Mal Alan” deyərək oxuyardı. Günlər keçdikcə Əsgər bir çox qadın gördü, amma o, təsəvvüründəki qadını heç cür tapa bilmirdi.

Xoşbəxtlikdən, Əsgər sevgilisini görmək istəyən yeganə şəxs deyildi. Sultan bəyin qızı Gülçöhrə də həmin arzu ilə yaşayırdı. Elə oldu ki, bir gün Sultan bəyin evinin yanından

keçərkən Əsgəri içəri dəvət edərək ondan mallarını göstərməyi xahiş edirlər. Və elə hər şey də buradan başlayır. O, Gülçöhrəni görən kimi axtardığı qadının məhz Gülçöhrə olduğunu anlayır. Bu onların hər ikisi üçün ilk baxışdan məhəbbət idi.

Bir qədər sonra Əsgər xalasını Sultan bəyin yanına elçiliyə göndərir. Onun xalası dul idi və iş elə gətirmişdi ki, Sultan bəy də özünə həyat yoldaşı axtarırdı. Sultan bəy həyətdə Əsgərin xalasını görəndən bir qədər sonra ona evlənmək təklifi edir. Bu zaman özünün əsl kimliyini hələ də açıb deməyən arşın malçı Sultan bəylə razılığa gəlməyi qərara alır. "Mən sənə xalamla evlənməyə izn verərəm, amma gərək sən də mənə qızınla evlənməyə icazə verəsən."

Sultan bəy cin atına minir. "Nə?! Yaramazın biri yaramaz! Mən heç vaxt qızımı arşın malçıya ərə verməzəm! Rədd ol!" Beləliklə Əsgər yenə də çaşqın vəziyyətdə çıxıb gedir.

Süleyman yenə də Əsgərin köməyinə gəlməyə çalışır. Bu dəfə o, şəxsən tanıdığı Sultan bəyin yanına arşın malçı Əsgər deyil, tacir Əsgərin adından elçi getməyi qərara alır.

Bu dəfə Sultan Bəy bir az yumşaldı. O, fikirləşdi: "Niyə də olmasın? Əsgər cavandır. O, dövlətlidir. Və o, şəhərdə ən hörmətli kişilərdən biridir." Beləliklə hər şey həll olundu. Yalnız bir şeydən başqa. Gülçöhrə artıq arşın malçıya ərə getmək istədiyini qərara almışdı və varlı tacir haqda heç bir şey eşitmək belə istəmirdi.

Bu dəfə Əsgərin dostları başqa cür hərəkət etməyi qərara aldılar. Onlar köhnə qayda olaraq qız qaçırtmağa əl atdılar. Belə ki, gecənin bir vaxtı onlar təzə gəlini qaçırtmaq məqsədilə gizlicə Sultan bəyin evinə girdilər. Onlar yalnız evə qayıdandan sonra böyük bir səhvə yol verdiklərini başa düşdülər. Gülçöhrəni qaçırmaq əvəzinə onlar onun əmisi qızı Asyanı qaçırmışdılar.

Onlar geri qayıdıb bu dəfə Gülçöhrəni tapdılar.

Lakin Əsgərin problemi hələ həll olunmamışdı. Gülçöhrənin ürəyi sınmışdı. O, ağlayaraq deyirdi: "Özümü öldürsəydim, bundan yaxşı olardı."

Elə bu vaxt Əsgər oz sirrini açdı. "Görmürsən? Mən əslində arşın malçıyam. Mən özüm arşın malçı kimi geyinmişdim ki, gələcəyimi paylaşacağım qadını seçə bilim."

Bundan sonra Gülçöhrə başa düşdü ki, Əsgər elə onun ərə getmək istədiyi oğlandır.

Son səhnədə qeyri adi bir toy məclisi qurulur. Bu toy yalnız Əsgər və Gülçöhrənin deyil, bir-birini bütün bu qarışıq hadisələr zamanı görən digər üç cütlüyün də toyu idi. Gülçöhrənin atası Sultan Bəy Əsgərin xalası ilə evlənir; Əsgərin dostu Suleyman Gülçöhrənin əmisi qızı Asyanı seçir, Əsgərin nökəri Vəli isə Gülçöhrənin qulluqçusu Tellini alır.

Və biz onların xöşbəxt həyat sürdüklərinə əmin ola bilərik.

---

Azərbaycan İnternational jurnalı, Yay 1994, Aİ 2.3, Səh. 65-66.